# Soydaşımızın Almaniyada böyük uğuru

İstedadlı bəstəkar, Azərbaycan Bəstəkarlar İttifaqının üzvü, musiqişünas alim, sənətşünaslıq üzrə fəlsəfə doktoru Xədicə Zeynalovanın böyük simfonik orkestr üçün bəstələdiyi "Feuertempel - Atəşgah - Od məbədi" əsəri ifa edilib. Almaniyanın 7 müxtəlif şəhərində teatr səhnələrində ilk dəfə səsləndirilən əsər tamaşaçıların böyük marağına səbəb olub, dərin rəğbətlə qarşılanıb.



Diasporla İş üzrə Dövlət Komitəsindən bildirilib ki, bəstəkar bu konsertlərdən üçünə qatılaraq tamaşaçılarla şəxsən görüşüb, əsər haqqında düşüncələrini bölüşüb.

Qeyd edək ki, Detmold Musiqi Akademiyasının və Paderborn Universitetinin dosenti olan Xədicə Zeynalova Almaniyada ilk dəfə qurulan beynəlmiləl tərkibli "Bridge of Sound" orkestrinin, həmçinin "Harmony of Sound" adlı Beynəlxalq Musiqi Festivalının yaradıcısı və bədii rəhbəridir. O, eyni zamanda Almaniyada 2024-cü ildə "İlin ən yaxşı bəstəkarı" adına və "Artist in Residence" nominasiyasına layiq görülən ilk azərbaycanlı bəstəkardır. Əsərləri dünyanın bir çox ölkəsində konsertlərdə, festivallarda ifa edilir.

Azərbaycan.-2025.- 15 yanvar (№ 8).- S.11.